UOT 347

# REZİDENTLİK PRİNSİPİ ƏSASINDA XARİCİ HÜQUQİ ŞƏXSLƏRİN VERGİ STATUSUNUN MÜQAYİSƏLİ-HÜQUQİ TƏHLİLİ: BEYNƏLXALQ TƏCRÜBƏ

**A.Q.MİRZƏYEVA**
***Bakı Dövlət Universiteti***
***afat-mirzayeva @ rambler.ru***

*Xarici ölkələrin vergi təcrübəsinə nəzər saldıqda görmək olur ki, hər hansı bir ölkədə xarici hüquqi şəxslərin vergiqoymaya cəlb edilməsi üçün əsasən iki yanaşma tərzi vardır:*

- *müvafiq dövlətdə xarici hüquqi şəxsin daimi nümayəndəliyinin və ya işgüzar bazanın olması( xarici şəxslər həmin ölkədə onların vasitəsilə fəaliyyətini həyata keçirirlər);*
- *müvafiq ölkə ərazisində kommersiya fəaliyyətinin həyata keçirilməsi və ölkə mənbələrindən gəlir əldə edilməsi faktı.*

*Avropa ölkələrinin vergi hüququ birincisinə üstünlük verir, yəni Avropa ölkələrinin vergi yurisdiksiyası «işgüzar bazanın olması» meyarı əsasında müəyyən olunur. Anqlo-sakson ölkələri üçün isə ikincisi, yəni xarici kompaniyanın satış fəaliyyətini həyata keçirə bilən «bölmə və ya kontorunun olması» meyarı əsasdır. Bu, kommersiya fəaliyyətinin həyata keçirilməsi kimi qiymətləndirilir.*

*Beləliklə, xarici kompaniyalar başqa ölkələrdə aşağıdakı səbəblərdən vergilərə cəlb olunurlar:*

- *əvvəla, həmin ölkədə kommersiya əməliyyatlarının bütün mərhələlərini həyata keçirirlər;*
- *ikincisi, həmin ölkədə işgüzar idarə (daimi nümayəndəlik) vasitəsilə əməliyyatlar həyata keçirilir;*
- *üçüncüsü, əməliyyatlar özlərinin müvəkkil etdikləri agentlər vasitəsilə reallaşır.*

*Türkiyə, Rusiya, Azərbaycan və bir sıra başqa ölkələrin vergi qanunvericiliklərinə əsasən, xarici hüquqi şəxslərin bir qismi tam vergi öhdəliyi, digər hissəsi natamam vergi öhdəliyi daşıyır. Bununla da xarici ölkələrin hüquqi şəxslərini vergi məqsədləri üçün rezidentlərə və qeyri-rezidentlərə ayırmaq lazımdır.*

**Açar sözlər:** Vergi rezidentliyi, inkorporasiya, qeyri-rezident, korporativ vergi, divident

Ümumiyyətlə, xarici ölkələrin vergi təcrübəsinə nəzər saldıqda görmək olur ki, hər hansı bir ölkədə xarici hüquqi şəxslərin vergiqoymaya cəlb edilməsi üçün əsasən iki yanaşma tərzi vardır:

- müvafiq dövlətdə xarici hüquqi şəxsin daimi nümayəndəliyinin və ya işgüzar bazanın olması, çünki xarici şəxslər həmin ölkədə onların vasi-

təsilə fəaliyyətini həyata keçirir;

- müvafiq ölkə ərazisində kommersiya fəaliyyətinin həyata keçirilməsi və ölkə mənbələrindən gəlir əldə edilməsi faktı.

L.V.Polejarovanın fikrincə, birincisi avro-qitə ölkələrinin, ikincisi isə anqlo-sakson ölkələrinin üstünlük verdikləri istiqamətlərdir (1, 23).

Hüquqi şəxslərin rezident vergi məqsədləri üçün və ya qeyri-rezident olması onların vergi ödənişi qaydalarına böyük təsir edir. Müxtəlif ölkələrdə hüquqi şəxslərin rezident olması meyarları müxtəlifdir. Belə ki, Rusiyada, əksər ölkələrdəki kimi, «inkorporasiya» meyarından istifadə olunur. Hüquqi şəxs qeydiyyatdan keçdiyi (təsis olunduğu) ölkənin rezidenti sayılır (2, 269).

İtaliyada «işgüzar məqsəd» meyarı əsas tutulur: hüquqi şəxs onun əməliyyatlarının böyük hissəsinin həyata keçirildiyi ölkənin rezidenti hesab olunur (3, 99).

Bəzi ölkələrdə, məsələn, Portuqaliyada «kompaniyanın cari idarəçiliyinin həyata keçirildiyi yer» meyarına üstünlük verilir: firma onun fəaliyyətinə cari idarəçiliyinin həyata keçirildiyi orqanın olduğu ölkənin rezidenti hesab olunur.

Amerika təcrübəsinə əsaslanan A.V.Fokin qeyd edir ki, ABŞ-da vergi qeyri-rezidentlərinə münasibətdə 2 rejim (4, 13) tətbiq olunur:

- ABŞ-ın ərazisində amerikan korporasiyaları kimi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə görə qeyri-rezidentlərin vergilərə cəlb edilməsi rejimi;
- ABŞ ərazisindən əldə olunan passiv gəlirlərin vergilərə cəlb edilməsi rejimi.

Birinci rejimə görə, ABŞ-da qeyri-rezidentin mütləq daimi nümayəndəlik açmaqla sahibkarlıq fəaliyyətini həyata keçirməsi zərurirdir. Yəni onların vergilərə cəlb edilməsi qaydaları, onlardan vergilərin tutulmasının prosedur qaydaları ABŞ-ın özünün hüquqi şəxslərinin vergiqoyulma qaydalarından heç də kəskin fərqlənmir. Onlar bir qayda olaraq vergi bəyannamələri təqdim edərək, könüllü olaraq vaxtlı-vaxtında vergiləri ödəməlidirlər.

İkinci rejimə görə isə passiv gəlirlərin (yəni faizlərin, dividendlərin, royaltinin), özü də ABŞ qanunvericiliyinə əsasən yol verilən passiv gəlirlərin ölkə ərazilərindən əldə edilməsi vacib şərtdir. Bu halda əvvəlkindən fərqli olaraq vergiqoymaya qeyri-rezidentin çəkdiyi xərclər qədər azalan gəliri deyil, ümumi gəliri cəlb olunur.

Xarici hüquqi şəxslərə (qeyri-rezidentlərə) münasibətdə dövlətin vergi yurisdiksiyasının natamam olmasının səbəbi yalnız vergiqoyma obyektlərinin ərazi aidiyyətinin olmasındadır.

M.A.Denisayev qeyd edir ki, xarici şəxslərə münasibətdə dövlətin vergi yurisdiksiyası aşağıdakı əlamətlərə (5, 17) əsaslanmalıdır:

- ölkənin iqtisadi həyatında daimi iştirak etməsi. Bu iştirak ölkə ərazisində faktiki yerləşməsi, əmlaka malik olması, daimi nümayəndəlik açması ilə daimi xarakter daşıya bilər;

– yaxud da ölkə ərazisində müvəqqəti fəaliyyət göstərib, gəlir əldə etməklə təsərrüfat həyatında iştirak etməsi. Bu zaman vergi ödəmələri vergi agentləri vasitəsilə köçürülə bilər.

Böyük Britaniya qanunvericiliyi müəyyən edir ki, bu ölkənin rezident-kompaniyaları harada və ya hansı ölkədən əldə olunmasından, Böyük Britaniyaya köçürüb-köçürülməməsindən asılı olmayaraq bütün gəlir və mənfəətləri korporativ vergiyə cəlb olunmalıdır. Rezident-kompaniya dedikdə, təşkili, fəaliyyəti, idarəçiliyi və nəzarəti Böyük Britaniya ərazisindən həyata keçirilən hər cür korporativ qurum başa düşülür. Hətta direktorlar şurasının iclaslarının bir qayda olaraq və mütəmadi surətdə Böyük Britaniya ərazisində keçirilməsi faktı da kompaniyanın rezident sayılması üçün əsas verir. Britaniya məhkəmələri bu fakta da əsaslana bilər və əsaslanır (6, 126-127).

Lakin yuxarıda sadalanan əlamətlərə cavab verməyən kompaniyalar qeyri- rezident hesab olunaraq, korporativ vergiyə o zaman cəlb oluna bilərlər ki, Böyük Britaniya ərazisində müvafiq şöbə və ya agentlik vasitəsilə fəaliyyət göstərmiş olsunlar. «Şöbə» anlayışına həm də malların satışı, xidmətlərin göstərilməsi üzrə sifarişləri yerinə yetirən qurumlar da daxildir. Böyük Britaniyanın başqa ölkələrlə bağladığı müqavilələrdə qeyri-rezidentlərə münasibətdə natamam vergiqoyma nəzərdə tutulur. Böyük Britaniya ərazisində müvafiq şöbə və ya agentlikləri olmayan qeyri- rezidentlərin gəlirləri, məsələn, faizləri, royalti, dividendləri korporativ vergiyə deyil, gəlir mənbəyində vergiyə cəlb olunur.

Fransada qeyri-rezident kompaniyalar ölkənin mənbələrindən əldə etdikləri gəlirlərə görə mənfəət vergisinə ölkə ərazisində «daimi işgüzar idarə»nin, olduğu, yaxud da kommersiya fəaliyyətinin bütün mərhələlərinin (tədarük, alqı-satqı) həyata keçirildiyi hallarda cəlb olunurlar. Fransanın vergi–rezidentlərinin isə həm Fransada, həm də ondan kənarda əldə etdikləri gəlirləri mənfəət vergisinə cəlb olunur. Yalnız fransız kompaniyalarının investisiya qoyuluşlarından dividend, faizlər və renta kimi gəlirləri vergiqoymaya cəlb olunur (6, 129).

Almaniya, Belçika və digər ölkələrdə də belə qaydalar hökm sürür. Ümumiyyətlə isə, Avropa Birliyi ərazisində birlik üzvü olan dövlətlərin hüquqi şəxslərinin birlik üzvü olan digər dövlətlərin ərazilərində əldə etdikləri gəlirlərin vergilərə cəlb olunması qaydaları Avropa Birliyi Şurasının müvafiq direktivləri ilə tənzim olunur. Belə direktivlərdən biri Avropa Birliyi Şurasının 3 iyun 2003-cü il tarixli «Ayrı-ayrı dövlətlərin bir-biri ilə əlaqəli kompaniyaları arasında ödənilən faizlər və royaltinin vergilərə cəlb olunmasının ümumi sistemi haqqında» Direktividir. Bu sənəddə qeyd olunur ki, ümumi bazar daxili bazarın əlamətlərini özündə daşıdığından, üzv-dövlətlərin müxtəlif kompaniyaları arasında əqdlərə münasibətdə bir dövlətin ərazisindəki kompaniyalar arasında bağlanan analoji əqdlərə münasibətdə tətbiq olunan vergiqoyma şəraitindən daha az əlverişlisi tətbiq oluna bilməz (7, 287).

Direktivin tələblərinə görə, üzv-dövlətdə faiz və royaltidən yalnız bir dəfə vergi tutulmalıdır və eyni zamanda həm milli vergi qanunvericilinin və həm də ikitərəfli və çoxtərəfli müqavilələrin tələblərinin tətbiqinə yol verməк olmaz. Əgər yol verilərsə, bu, ikiqat vergiqoymanın aradan qaldırılmasını heç vaxt təmin edə bilməz. Birlik üzvü olan dövlətlərdə faizlər və royalti yalnız bir dəfə vergiyə cəlb olunmalıdır.

İnkişaf etmiş ölkələrdə vergi yükünün bəzən ağır olduğunu nəzərə alaraq, həmin ölkələrin müəssisə və kompaniyaları son illərdə öz fəaliyyətlərini planlaşdırarkən əməliyyatlarının müəyyən qismini vergi məsələlərində daha əlverişli hesab olunan və vergiqoyma şəraiti əlverişli olan ölkələrdə həyata keçirirlər. Belə əməliyyatlar səhmdarlara və investorlara gözlədikləri mənfəəti itkisiz başa gətirir.

Qərbi Avropa ölkələrində xarici kompaniyanın ölkə ərazisində xarici iqtisadi fəaliyyətdən əldə olunan gəlirləri vergiyə o zaman cəlb olunur ki:

- əgər kommersiya əməliyyatlarının bütün mərhələləri həmin ölkədə həyata keçirilirsə;
- işgüzar idarə (daimi nümayəndəlik) vasitəsilə əməliyyatlar həyata keçirilirsə;
- yaxud da, müvafiq əqdlərin bağlanmasını həyata keçirmək səlahiyyətini daşıyan agentlər vasitəsilə əməliyyatlar reallaşırsa (1, 22).

Türkiyə Cümhuriyyətinin 21 iyun 2006-cı il tarixli 5520 saylı «Kurumlar vergisi Kanun»unun 3-cü maddəsinə görə, (8, 328) istər Türkiyə daxilində, istərsə də xaricdə müəssisələrin əldə etdikləri qazanclar vergiləndirilir və həmin müəssisələr tam vergi mükəlləfiyyəti daşıyırlar (yəni həmin müəssisələr rezident sayılırlar- müəllifdən).

Dar vergi mükəlləfiyyəti yabançı qurumların (xarici şirkətlərin) qanuni və iş mərkəzlərinin hər ikisi Türkiyədə bulunmayanlardır ki, onların sadəcə Türkiyədə əldə etdikləri qazancları vergiləndirilirlər. Bu kimi qazanclara aşağıdakılar aid edilir:

- Türkiyədə iş yeri olan və ya daimi təmsilçisi olan yabançı qurumlar tərəfindən bu yerlərdə və ya bu təmsilçilər vasitəsilə görülən işlərdən əldə edilən ticarət qazancları;
- Türkiyədə olan zirai işlətmədən əldə edilən qazanclar;
- Türkiyədə əldə edilən sərbəst məslək qazancları;
- Daşınar və daşınmazlar ilə haqların Türkiyədə kiralanmasından əldə edilən iratlar;
- Türkiyədə əldə edilən menkul sərmayə iratları;
- Türkiyədə əldə edilən digər qazanc və iratlar.

Həmin Qanunun 3-cü maddəsinin 4 və 5-ci bəndlərində «qanuni merkez» və «iş mərkəzi» anlayışlarının mahiyyəti göstərilir. Belə ki, qanuni mərkəz dedikdə, «vergiyə tabi kurumların kuruluş qanunlarında, tüzüklerinde, ana staTÜlerinde və ya sözleşmelerinde gösterilen merkez»; iş mrkezi» dedikdə isə «iş ba-

kımından işlemlerin fiilen toplandığı ve yönetildiği merkez» başa düşülməlidir (8, 328-329).

Rusiya Federasiyasının Vergi Məcəlləsinin 306-cı maddəsində 1 və 2-ci bəndlərində xarici təşkilatların (müəssisələrin) Rusiya Federasiyası ərazisində daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirərkən onların vergilərə cəlb olunması müəyyən edilir. Xarici şirkətlərin daimi nümayəndəliyi dedikdə Rusiya Federasiyası ərazisində filial, nümayəndəlik, şöbə, büro, kontor, agentlik və digər qurumlar başa düşülür (9, 352). Habelə onların fəaliyyət dairəsi aşağıdakı kimi müəyyən edilir:

- təbii ehtiyatlardan və Yerin təkindən istifadə edilməsi;
- tikinti, avadanlıqların, habelə oyun avtomatlarının qurulması, montaj edilməsi, yığılması, düzəldilməsi, təmiri və işlədilməsi, onlara xidmət;
- Rusiya ərazisində olan, və ya həmin müəssisəyə məxsus olan yaxud da ambarlardan kirayə olunan malların satışı.

Həmin Məcəllənin 307-ci maddəsinin 1-ci bəndində isə daimi nümayəndəliyin vergiyə cəlb olunacaq obyektləri sadalanır;

- xarici şirkətin daimi nümayəndəliyinin həyata keçirdiyi fəaliyyətindən əldə olunmuş gəlirdən fəaliyyətlə bağlı xərclər çıxmaqla qalan gəlirlər;
- Rusiya ərazisində xarici şirkətin daimi nümayəndəliyinin öz əmlakına sahiblik, istifadə və sərəncam ilə əlaqədar, lakin xərclər nəzərə alınmaqla əldə etdiyi gəlirləri;
- digər gəlirləri.

Daimi nümayəndəlik olmadan Rusiya Federasiyası ərazisindəki fəaliyyətlərindən xarici şirkətlər aşağıdakı gəlirlərdən elə gəlir mənbəyindəcə vergiyə cəlb olunurlar:

1) Rusiya müəssisələrində iştirak etməkdən səhmdar – xarici şirkətə ödənilən dividendlər;
2) borc öhdəliklərindən faizlər;
3) əqli mülkiyyət obyektlərinin istifadəsindən əldə olunmuş gəlirlər (royalti);
4) təşkilatların ləğvi zamanı mənfəətin və ya əmlakın bölüşdürülməsindən xarici təşkilatların xeyrinə ödənilmiş gəlirlər;
5) Rusiya Federasiyası ərazisində olan daşınmaz əmlakın satışından əldə olunan gəlirlər;
6) əmlakın icarəyə verilməsindən onlara ödənilən icarə haqları;
7) beynəlxalq daşımalardan əldə olunan gəlirlər;
8) Rusiyanın şəxsləri tərəfindən müqavilə öhdəliklərinin pozulmasına görə alınan cərimələr və faizlər;
9) digər gəlirlər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 13.2.5.3. maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq təsis

edilən və sahibkarlıq fəaliyyətini həyata keçirən və ya Azərbaycan Respublikasında idarəetmə yeri olan istənilən hüquqi şəxs rezident hesab edilir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.16 maddəsinə əsasən, Azərbaycan mənbəyindən gəlirlərə isə aşağıdakılar aid edilir:

1. Azərbaycan Respublikasında muzdlu işdən gəlir.

2. Azərbaycan Respublikasında istehsal edilmiş malların istehsalçı tərəfindən təqdim edilməsindən gəlir.

3. Azərbaycan Respublikasında malların təqdim edilməsindən, iş görülməsindən və xidmət göstərilməsindən gəlir.

4. Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyə aid edilən sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir, o cümlədən belə daimi nümayəndəlik vasitəsilə təqdim edilmiş mallara (işlərə, xidmətlərə) aid edilə bilən eyni cinsli, yaxud bənzər (oxşar) malların (işlərin, xidmətlərin) təqdim edilməsindən, habelə daimi nümayəndəlik vasitəsilə həyata keçirilən fəaliyyətə aid edilə bilən fəaliyyətdən və ya ona oxşar fəaliyyətdən əldə edilmiş gəlir.

5. Azərbaycan Respublikasındakı sahibkarlıq fəaliyyəti ilə əlaqədar:

■ vergi ödəyicisinin borclarının onun kreditorları tərəfindən silinməsindən.

■ Vergi Məcəlləsinin 114.7-ci maddəsinə uyğun olaraq gəlirə daxil edilmiş əsas vəsaitlərin təqdim edilməsindən.

■ xərclərin bu Məcəllənin 141-ci maddəsinə uyğun olaraq kompensasiya edilməsindən və ya ehtiyatların azalmasından gəlir.

6. Rezident hüquqi şəxsdən dividend şəklində əldə edilən gəlir, həmçinin bu hüquqi şəxsdə iştirak payının satılmasından və ya başqasına verilməsindən əldə edilən gəlir.

7. Rezidentlərdən alınan faizlər şəklində gəlir.

8. Rezident tərəfindən ödənilən pensiya.

9. Azərbaycan Respublikasının ərazisində daimi nümayəndəliyi və ya əmlakı olan şəxsdən alınan faizlər şəklində gəlir - həmin şəxsin bu faizlər üzrə borcu bu cür daimi nümayəndəlik və ya əmlakla bağlıdırsa.

10. Azərbaycan Respublikasında saxlanılan və ya istifadə edilən əmlak üçün alınan royalti şəklində gəlir.

11. Azərbaycan Respublikasında istifadə edilən daşınan əmlakın icarəyə verilməsindən əldə edilən gəlir.

12. Azərbaycan Respublikasındakı daşınmaz əmlakdan əldə edilən gəlir, o cümlədən bu əmlakda iştirak payının təqdim edilməsindən gəlir.

13. Aktivlərinin 50 faizindən çox olan hissəsi birbaşa və ya dolayısı ilə Azərbaycan Respublikasındakı daşınmaz əmlakdan ibarət olan müəssisənin səhmlərinin və ya iştirak payının təqdim edilməsindən gəlir.

14. Rezidentin sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan əmlak təqdim edilməsindən əldə etdiyi digər gəlirlər.

15. İdarəetmə, maliyyə xidmətləri göstərilməsindən əldə edilən gəlir -

bu gəlir rezident hüquqi şəxsin və ya qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisində yerləşən daimi nümayəndəliyi tərəfindən ödənilirsə, yaxud o, həmin müəssisə və ya onun daimi nümayəndəliyi ilə bağlanmış müqaviləyə əsasən əldə edilmişdirsə.

16. Azərbaycan Respublikasında riskin sığortası və ya təkrar sığortası haqqında müqavilə üzrə ödənilən gəlir.

17. Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya daşımalar həyata keçirilərkən telekommunikasiya və ya nəqliyyat xidmətlərindən gəlir.

18. Azərbaycan Respublikasındakı fəaliyyətlə bağlı meydana çıxan digər gəlirlər. Gəlirin mənbəyi müəyyən edilərkən gəlirin ödənildiyi yer, həmçinin onun birbaşa və ya dolayısı ilə ödənilməsi nəzərə alınmır.

Xarici ölkələrin vergi sistemlərini təhlil edərkən belə qənaətə gəlmək olur ki, müasir bazar iqtisadiyyatı şəraitində hər bir dövlət həmin ölkədən əldə olunmuş bütün gəlirlərin, habelə yerindən asılı olmayaraq ölkə vətəndaşlarının və şirkətlərinin əldə etdikləri bütün gəlirlərinin vergilərə cəlb edilməsinə çalışır.

Prof. Q.V.Petrova bu cür səylərin kökündə ölkələrin öz milli vergi qanunvericiliyinin müəyyən etdiyi normaların tələblərinin dayandağını iddia edir. Müəllif qeyd edir ki, xarici dövlətlərin hər birinin vergi qanunvericiliyi «qlobal tax sistemi konsepsiyasına əsaslanaraq, ilk növbədə özlərinin büdcələrini müdafiə edir və vergilərin xaricə aparılmasından qoruyur (10, 241). Hesab olunur ki, ümumiyyətlə, hər bir vergi ödəyici, istər vətəndaşlar, istərsə də hüquqi şəxslər, istər milli, istərsə də xarici şəxslər gəlir əldə olunmasını təmin edən ölkənin idarə edilməsində, ona köməklik edilməsində, ölkəyə investisiya qoyulmasında yaxından iştirak etməlidir.

**ƏDƏBİYYAT**


1. Полежарова. Л.В. Международное двойное налогообложение: механизм устранения в Российской Федерации. М.: Магистр, 2009, 303 с.
2. Миляков И.В. Налоговое право: Учебник. М.: ИНФРА-М, 2008, 383 с.
3. Пепеляев С.Г. Налоги: реформы и практика. М.: Статут, 2005, 287 с.
4. Фокин А.В. Международное налогообложение пассивных доходов (процентов, дивидендов, роялти): американский опыт. М.:Волтерс Клувер, 2009, 216 с.
5. Денисаев М.А. Налоговые отношения с участием иностранных организаций в Российской Федерации /Отв. ред. Е.Ю.Грачева. М.: Юриспруденция, 2005, 144 с.
6. Аронов А.В., Кашин В.А. Налоги и налогообложение: Учебное пособие. М.: Магистр, 2009, 576 с.
7. Захаров А.С. Налоговое право ЕС: актуальные проблемы функционирования единой системы. М.: Вольтерс Клувер, 2010, 287 с.
8. Yürürlükdəki Türk Vergi Kanunları/ Hazırlayan Mustafa Tan. Nisan, 2007, 1051 s.
9. Налоговый Кодекс Российской Федерации. Из 2-х ч. I и II ч. М.: Эксмо, 2010, 560 с.
10. Петрова Г.В.Финансовое право: Учебник. М.:Проспект, 2009, 288 с.

# СРАВНИТЕЛЬНО-ПРАВОВОЙ АНАЛИЗ НАЛОГОВОГО СТАТУСА ИНОСТРАННЫХ ЮРИДИЧЕСКИХ ЛИЦ ПО ПРИНЦИПУ РЕЗИДЕНТСТВА: МЕЖДУНАРОДНЫЙ ОПЫТ

**А.Г.МИРЗОЕВА**

## РЕЗЮМЕ

При сравнительном исследовании международного опыта в области определения налогового статуса иностранных юридических лиц можно выделить два подхода:

– учет факта наличия на территории государства постоянного делового учреждения, через которое иностранная компания осуществляет свою деятельность;
– учет фактов осуществления деятельности в данном государстве и извлечения доходов от источников, находящихся на территории государства.

Налоговое право европейских стран, отдает предпочтение первому подходу, т.е. эти страны свою налоговую юрисдикцию строят на критерии «делового учреждения». Для англосаксонских стран характерен второй подход, т.е. наличие у иностранной компании сбытого отделения или конторы. Это рассматривается как осуществление коммерческой деятельности.

Таким образом, иностранные компании облагаются налогами в другой стране, по некоторым причинам:

– во первых, осуществляют там полный цикл коммерческих и экономических операций;
– во вторых, в данном государстве действуют через свои деловые учреждения;
– в- третьих, реализуют свои операции через своих агентов.

Согласно законодательствам Турции, России, Азербайджан и ряда других стран, часть иностранных юридических лиц носит полную налоговую обязанность, другая часть-ограниченную. Тем самым, в целях налогообложения юридических лиц зарубежных стран следует разделить на резидентов и нерезидентов.

**Ключевые слова:** налоговое резидентсво, инкорпорация, нерезидент, юридическое лицо

# COMPARATIVE LEGAL ANALYSIS OF THE TAX STATUS OF FOREIGN LEGAL ENTITIES ON THE BASIS OF RESIDENCY: INTERNATIONAL EXPERIENCE

**A.G.MIRZAYEVA**

## SUMMARY

A comparative study of international experience in determining the tax status of foreign legal entities can be divided into two approaches: the account of the existence of a permanent business establishment in the territory through which a foreign company carries out its activities; the facts of the activities in this State and income from sources within the State: Tax Law of the European countries favors the first approach, i.e. these countries build their tax jurisdiction on the criteria of "business establishments. The second approach i.e. the presence of a foreign company sales office is typical for the Anglo-Saxon countries. Thus, foreign com-

panies are taxed in other countries for several reasons: firstly, they carry full cycle commercial and economic transactions; secondly, work through their own business establishments in this country third, realize their operation through their agents. According to the laws of Turkey, Russia, Azerbaijan and other countries, some foreign legal entities carry full tax liability, the others bounded. Thus, the purpose of taxation of legal persons of foreign countries should be divided into residents and nonresidents.

**Kay words:** Tax residence, incorporation, nonresidence, corporative tax, dividend